# Avropa Parlamenti Azərbaycanın qələbəsi ilə barışa bilmir

**Avropa Parlamenti Azərbaycanın uğurlarını, eləcə də Vətən müharibəsindəki şanlı zəfərini həzm edə bilmir. Ona görə də ardıcıl şəkildə Azərbaycanı hədəfə alan əsassız sənədlər qəbul edir.**





Bizim üçün kağız parçasından başqa bir şey olmayan həmin "sənəd"lərdə Azərbaycanın guya Ermənistana hərbi təcavüz etməsi, Laçın yolunun "blokada"da olması kimi iddialar, eləcə də "Minsk qrupu", "status", "Dağlıq Qarabağda və ətrafında" kimi sərsəm iddialar əksini tapır. Avroparlamentin bu hərəkətləri onun riyakarlığından xəbər verir.

## Qərəzli qətnamələr erməni məkrinə xidmət edir

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirib ki, Avropa Parlamentinin qətnamələri reallıqları əks etdirmir, tamamilə böhtan və yalan xarakterlidir: "Hiss olunur ki, əvvəlkilər kimi, bu sənəd də ermənipərəst qüvvələrin diktəsi ilə hazırlanıb. Sözsüz ki, belə qətnamələrin hazırlanması və Azərbaycan əleyhinə reallıqları əks etdirməyən fikirlərin söylənilməsi Avropa Parlamentinin erməni xislətinin göstəricisidir. Bu gün Avroparlament erməni lobbisinin, müxtəlif korrupsionerlərin əlində oyuncağa çevrilib. Onlar ürəkləri istəyən kimi, beynəlxalq norma və prinsipləri nəzərə almadan əsassız sənədlər hazırlayır və onları yayırlar. Bu, Avropanın özünə və gələcək perspektivlərinə ciddi təhdid yaradır".

Komitə sədri qeyd edib ki, Avropa Parlamentinin riyakar münasibətinin əsas səbəbi oradakı deputatların bir çoxunun erməniərəst qüvvələr, erməni milyarderlər tərəfindən maliyyələşdirilməsidir: "Erməni lobbisi həmin parlamentariləri ələ alıb. Onlar da regionda baş verən hadisələrdən xəbərsiz olduqları üçün, həm də maddi vəziyyətlərini yaxşılaşdırmaqdan ötrü xahişlə belə qətnamələr qəbul edirlər. Təkcə Avropa Parlamenti deyil, Avropanın bəzi ölkələri, xüsusilə Fransa Azərbaycanın artmaqda olan nüfuzundan, türk dünyasının birliyindən ciddi narahatlıq keçirir. Bu, tarixən də belə olub. Türkiyənin dünyada söz sahibinə çevrilməsi, hadisələrə müdaxilə etmək gücü Avropada təşviş yaradıb. Elə Azərbaycanın da son illərdə beynəlxalq aləmdə qazandığı nüfuz bəzi Avropa ölkələrini qıcıqlandırır. Bu, həmin dövlətlərdə ölkəmizə qarşı mənfi emosiya yaradır. Avroparlament də bu emosiyalardan xali deyil".

Tahir Rzayev bildirib ki, Azərbaycanın Hayastan üzərində tarixi zəfəri Avropanın bir çox dövləti üçün gözlənilən deyildi: "Bizim şanlı zəfərimiz onlarda belə bir fikir formalaşdırdı ki, Azərbaycan gündəngünə qüvvətlənir, söz sahibinə çevrilir. Ona görə də ölkəmiz haqqında müəyyən böhtan xarakterli məlumatlar yayır, imicimizə kölgə salmağa çalışırlar. Lakin anlamırlar ki, belə qərəzli münasibət Avroparlamentin özünü nüfuzdan salır. Bu gün Azərbaycan heç bir ölkənin kölgəsində deyil, özünün müstəqil siyasi yolu və gündən-günə güclənən iqtisadiyyatı var".

## Avroparlamentin bütün cəhdləri iflasa məhkumdur

Milli Məclisin deputatı Arzu Nağıyev qeyd edib ki, Avropa Parlamenti riyakar qətnamələri ilə tez-tez gündəmə gəlir: "Əvvəllər Azərbaycana insan haqları ilə bağlı müəyyən qərəzli münasibət göstərir, məsələlərə ikili standartlarla yanaşırdılar. AP-də təmsil olunan, Azərbaycana dost olmayan dövlətlərin parlamentariləri mütləq şəkildə ermənilərin maliyyə dəstəyi ilə bu və ya digər formada ölkəmizə qarşı ədalətsizliklərini nümayiş etdirirlər. Son vaxtlarda bu çirkin mövqeyin başında duran əsasən Fransadır. Rəsmi Paris bu və ya digər şəkildə ermənilərə havadarlıq edərək, nəyin bahasına olursa-olsun, Azərbaycanla bağlı mənfi rəy yaratmağa çalışır. Artıq tarixdə qalmış ATƏT-in Minsk qrupunun həmsədri olmuş Fransa yalnız riyakarlığı ilə yadda qaldı. Nə qədər ki işğal var idi, onlar bizim ərazilərimizdən iqtisadi faydaları üçün istifadə edirdilər. Vətən müharibəsindəki qələbəmizdən sonra bu qapılar onların üzünə bağlandığına görə, başqa məkrli əməllərə əl atırlar".

Deputat bildirib ki, Laçın yolunun guya blokadada olması kimi absurd söhbətlər AP-nin qərəzli mövqeyindən xəbər verir: "Amma Avropa Parlamenti bir dəfə də olsun Azərbaycan-Ermənistan sərhədinin delimitasiya və demarkasiyasından danışmayıb, 30 il ərzində ölkəmizin işğal altında olan əraziləri barədə hansısa qətnamə qəbul etməyib. İndi də tamamilə erməni lobbiçilərinin maliyyə dəstəyi ilə qərəzli qətnamələr qəbul etməyə başlayıb. Ölkəmizə qarşı bu cür münasibət ədalətsizlikdir".

A.Nağıyev deyib ki, bəzi təşkilatların və dövlətlərin bu cür münasibətlərinin səbəbləri Azərbaycanın müstəqil və qətiyyətli siyasət yürütməsidir: "Azərbaycan ərazilərimizdə gərginlik, təhlükəsizliyimizə təhlükə yaradan bütün təxribat xarakterli davranışlara adekvat cavablar verir. İkili standartlar yürüdən Avropa Parlamenti Azərbaycanın müstəqil və uğurla həyata keçirilən xarici və daxili siyasətini həzm edə bilmir. Amma bunlar faydasızdır və AP-nin qətnamələrinin bizim üçün heç bir əhəmiyyəti yoxdur".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.-17 mart.-S.9.